Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

ARTİ
Azərbaycan Respublikasının Təhsil İnstitutu

MÜTDA
Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi

birbank

# RFO

RESPUBLİKA FƏNN OLİMPİADALARI

Ad ____________________ Soyad ____________________

# 10-11

# COĞRAFİYA

## YUXARI YAŞ QRUPU

- İmtahan müddəti 180 dəqiqədir.
- Hər səhv cavab öz dəyərinin 1/4 - ni aparır.
- 1-10-cu suallar 3, 11-20-ci suallar 4, 21-30-cu suallar 5 balla qiymətləndirilir.
- Nəzarətçilərə cavab kağızları və buraxılış vərəqələri təqdim olunur.
- Sual kitabçasında hər hansı texniki qüsur aşkarlandığı və kitabçanın şagirdin məlumatlarına uyğun olmadığı halda (fənn, bölmə, sinif) imtahandan əvvəl mütləq otaq nəzarətçisinə bildirilməlidir.
- Yarımfinal turunun nəticələrini 04.03.2025-ci il tarixindən etibarən portal.edu.az platformasında şəxsi kabinetinizdən və təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

**Uğurlar!**

**1.** Doğru fikirləri müəyyən edin.

1. İstənilən coğrafi enlikdə okean səthindən dərinliyə doğru hərəkət edərkən suyun temperaturunun azalması müşahidə edilir.
2. İstənilən məntəqədə günəş şüalarının günorta vaxtı maksimum düşmə bucağı və ən yüksək orta illik temperatur müxtəlif təqvim günlərində müşahidə edilir.
3. Tropik iqlim qurşağında yerləşən bütün ərazilərdə düz radiasiyanın kəmiyyəti üstünlük təşkil edir.
4. B.P.Alisov iqlim təsnifatını ərazidə formalaşan temperatur şəraiti və hava kütlələrinə görə aparmışdır.
5. Həm termik, həm də dinamik təzyiq qurşaqlarında qalxan hava yarana bilər.
6. Okeanlarda səth və dərinlik su kütlələrinin temperaturunun dəyişməsi yalnız ekzogen qüvvələrin təsiri ilə baş verir.

A) 2, 4, 5　　B) 1, 3, 5
C) 2, 3, 6　　D) 1, 4, 6
E) 2, 3, 4

**2**. Doğru ***olmayan*** fikrləri müəyyən edin.

1. Mülayim işıqlanma qurşağında isti, mülayim və soyuq istilik qurşaqlarına rast gəlinir.
2. Qlyasiologiya elmi qrunt sularını öyrənir.
3. Vasyuqan bataqlığı və Qaraqum səhrası cavan platformada yerləşir.
4. Araz çayının qidalanmasında yeraltı suların payının üstün olmasının əsas səbəblərindən biri mənbəyində vulkanik süxurların üstünlük təşkil etməsidir.
5. Şirvan düzündən axan bütün çayların qidalanmasında yeraltı sular üstünlük təşkil edir.
6. Yamacların istiqaməti qar xəttinin mütləq hündürlüyünə təsir etmir.

A) 3, 4, 6　　B) 1, 3, 5
C) 2, 4, 5　　D) 1, 2, 3
E) 2, 5, 6

**3.** Cədvələ əsasən uyğunluğu müəyyən edin.

| № | Coğrafi obyekt | Divergent sərhəd | Konvergent sərhəd |
|---|---|---|---|
| 1 | Pasxa adası | ✓ | |
| 2 | Koreya yarımadası | | ✓ |
| 3 | Azor adaları | ✓ | |
| 4 | Cavan platformalar | | ✓ |
| 5 | Dərin okean novları | ✓ | |
| 6 | Tanqanika gölünün çuxuru | ✓ | |

A) 2, 4, 5　　B) 1, 3, 6
C) 1, 2, 4　　D) 2, 3, 6
E) 3, 4, 6

**4.** Cədvələ əsasən uyğunluğu müəyyən edin.
(“+” aiddir, “–” aid deyil)

| № | Ölkələr | Monarxiya | Federasiya |
|---|---|---|---|
| 1 | Belçika | + | + |
| 2 | Butan | – | – |
| 3 | Laos | + | – |
| 4 | Kamboca | + | – |
| 5 | Malayziya | + | + |
| 6 | BƏƏ | + | – |

A) 1, 4, 5　　B) 1, 2, 3
C) 2, 4, 6　　D) 1, 5, 6
E) 3, 4, 5

**5.** Doğru fikirləri müəyyən edin.

1. Günəş 20° şimal enliyində zenitdə olduğu vaxtdan 25 gün sonra 23,5° şimal enliyində zenitdə olur.
2. Böyük Qafqaz təbii vilayətində metamorfik mənşəli süxurlara rast gəlinir.
3. Kür çökəkliyi təbii vilayətinin Gürcüstan respublikası ilə sərhəd olan bütün hissələrində yalnız yarımsəhra və quru çöl iqlim tipinə rast gəlinir.
4. bənd yazılmayıb Çay şəbəkəsinin ən sıx olduğu ərazi mülayim-kontinental iqlim vilayətində yerləşir.
5. Orta düzluluğu ən yüksək olan okean Atlantikdir.
6. Körpələrin uşaq müəssisələrinə cəlb edilməsi demoqrafik böhranın aradan qaldırılması tədbirlərindən hesab edilir.

A) 1, 5, 6
B) 1, 3, 4
C) 2, 5, 6
D) 2, 3, 5
E) 4, 5, 6

**6.** Qafqaz dağlarının cədvəldə göstərilən dağlarla oxşarlığını müəyyən edin (bütün doğru fikirləri seçin).

| I Pamir | II Tyan-Şan | III Skandinaviya |
|---|---|---|
| a.Dünya okeanına çıxışı olan ölkə ərazisində yerləşir.<br>b.Subnival və nival landşaftlara rast gəlinir.<br>c. Federativ inzibati ərazi quruluşuna malik olan ölkə ərazisində yerləşir. | a.Çayları yalnız axarsız hövzəyə aiddir.<br>b. Altay dil ailəsinə mənsub olan xalqlar yaşayır.<br>c. Həm yarımsəhra, həm də nival landşaftlar mövcuddur. | a. Buzlaq mənşəli gölə rast gəlinir.<br>b. Ərazisindən axan çayların töküldüyü su hövzələri qış aylarında buz bağlayır.<br>c. Ətəklərində mülayim kontinental iqlim tipinə rast gəlinir. |

A) I-c; II-a,c; III-b;
B) I-a,b,c; II-b,c; III-a,b,c;
C) I-a,b; II-b,c; III-b,c;
D) I-a,b,c; II-b; III-c;
E) I-a,c; II-b,c; III-a,b;

**7.** Cənubi Afrika Respublikasının (CAR) cədvəldə göstərilən ölkələrlə oxşarlığını müəyyən edin (bütün doğru fikirləri seçin).

| I Misir | II İspaniya | III Hindistan |
|---|---|---|
| a. Həm mülayim, həm də tropik işıqlanma qurşağında yerləşir.<br>b.Ərazisindən axan ən uzun çay Atlantik okeanı hövzəsinə aiddir.<br>c. Sitrus bitkiçiliyi üçün təbii şərait mövcuddur. | a. G-20 ölkələr qrupuna daxildir.<br>b.Materikin ucqar nöqtələri yerləşir.<br>c. Anklav dövlətlə həmsərhəddir. | a.Tropik iqlim qurşağı tam zolaq təşkil edir.<br>b. Qədim dağlara rast gəlinir.<br>c. BRİKS (BRİCS) təşkilatına üzv ölkədir. |

A) I-a,b,c; II-b; III-b,c;
B) I-b,c; II-a,b; III-a,b,c;
C) I-a,b,c; II-b,c; III-a,c;
D) I-a,b; II-b; III-b,c;
E) I-a,b,c; II-a,b,c; III-a,b,c;

**8.** Doğru fikirləri müəyyən edin.

1. Qızılağac milli parkı Kür-Araz fiziki coğrafi rayonunda yerləşir.
2. Şəki inzibati rayonunun ərazisi yalnız iki fiziki-coğrafi rayonda yerləşir.
3. Zaqatala və Balakən inzibati rayonlarının ərazisində Yura dövrünün çöküntüləri Təbaşir dövrünün çöküntüləri ilə müqayisədə daha çox ərazilərdə yayılmışdır.
4. Böyük Qafqaz təbii vilayətində su-buzlaq düzənliklərinə rast gəlinir.
5. Culfa şəhərində havanın orta illik temperaturu Ağcabədi şəhərinin eyni göstəricisindən daha yüksəkdir.
6. Göyçə gölü axarsız göl hesab edilir.

A) 3, 5, 6
B) 2, 3, 5
C) 1, 4, 6
D) 1, 3, 4
E) 2, 3, 4

**9.** Doğru ***olmayan*** fikirləri müəyyən edin.

1. Xəzər dənizində (göl) yerləşən Kulalı və Durnev adaları Qazaxıstan dövlətinə məxsusdur.
2. Niger, Yukon, Dauqava ( Qərbi Dvina) və San-Fransisku çayları transsərhəd çaylar hesab edilir.
3. Alyaska, Kamçatka, Yutlandiya və Apennin yarımadalarında neotektonik proseslər üstünlük təşkil edir.
4. Atlantik okeanında tropik səhra (okean səhraları) iqlim tipinə rast gəlinir.
5. Lena çayının bir çox sağ qolları Verxoyansk dağlarından başlayır.
6. Anqara və Aldan çayları Yenisey çayının sutoplayıcı hövzəsində yerləşir.

A) 2, 4, 6
B) 1, 3, 4
C) 2, 3, 6
D) 1, 3, 5
E) 2, 4, 5

**10.** Cədvələ əsasən ***uyğunsuzluğu*** müəyyən edin.

| | | |
|---|---|---|
| 1 | Günəş şüalarının günorta vaxtı maksimum və minimum düşmə bucaqları arasında ən az fərqin olduğu coğrafi enlikdə yalnız bir iqlim qurşağına rast gəlinir. | *doğru* |
| 2. | Mesopotamiya ovalığında buxarlanma ilə buxarlanma qabiliyyəti arasındakı fərq La-Plata ovalığındakından daha böyükdür. | *yanlış* |
| 3 | Cənubi Amerika materikinin ucqar şimal nöqtəsi Avrasiya materikinin ucqar cənub nöqtəsindən daha cənubdadır. | *yanlış* |
| 4. | Yansızı və Xuanxe çayları Şərqi Çin dənizinə tökülür. | *yanlış* |
| 5 | Asiya qitəsində həm sönmüş həm də fəaliyyətdə olan vulkanlara rast gəlinir. | *doğru* |
| 6 | Kalimantan adası yalnız iki ölkənin ərazisi hesab edilir. | *doğru* |

A) 2, 3, 5
B) 2, 4, 5
C) 1, 3, 6
D) 1, 3, 4
E) 1, 2, 6

**11.** Cədvəldəki ***uyğunsuzluğu*** müəyyən edin.

| | | |
|---|---|---|
| 1 | Dəniz transqresiyası ilə başlayan geoloji proses nəticəsində daş kömür yataqları yaranmışdır. | yanlış |
| 2 | Aralıq, Qara və Çukot dənizləri eyni qitənin sahillərini yuyur. | doğru |
| 3 | Ölkəmizin ərazisinin 31%-i okean səviyyəsindən aşağıda yerləşir. | doğru |
| 4 | Ölkəmizin fiziki səthinin sahəsi həndəsi səthinin sahəsindən daha böyükdür. | doğru |
| 5. | Dağ kserofit landşaftları Böyük və Kiçik Qafqazda dağlarında qurşaq təşkil etmir. | yanlış |
| 6. | Qızılca, Rvarud, Zuvand və Daşaltı yasaqlığı eyni tektonik zonada yerləşir. | doğru |

A) 2, 5, 6
B) 2, 4, 6
C) 1, 3, 4
D) 1, 3, 5
E) 1, 4, 5

**12.** Eyler-Venn diaqramını tamamlayan bəndi müəyyən edin.




1. İki xarici ölkə ilə həmsərhəddir.
2. Neft ehtiyatları mövcuddur.
3. Şərqi Zəngəzur iqtisadi rayonu ilə həmsərhəddir.
4. Yayı quraq keçən mülayim isti iqlim yarımtipinə rast gəlinir.
5. Bedlendlərə rast gəlinir.
6. İşğaldan azad edilən əraziləri mövcuddur.

A) 4, 5, 6 B) 1, 4, 6
C) 2, 3, 6 D) 1, 3, 4
E) 2, 5, 6

**13.** *Verilmiş fikirlərə əsasən **A** ölkəsi ilə bağlı cədvəldəki **uyğunsuzluğu** müəyyən edin.*

— Üç yarımkürədə yerləşir və sahillərini yalnız bir okean suları yuyur.
— Litosfer tavalarının konvergent sərhədində yerləşsə də, divergent sərhəddə yerləşən adaları mövcuddur.
— Qurudan həmsərhəd olduğu ölkələrdən yalnız birinin sahillərini iki okean suları yuyur.
— Əhalisinin xristian dininə sitayiş edir.
— Çayları iki okean hövzəsinə aiddir.

| | | |
|---|---|---|
| 1 | Günəş zenitdə olur. | *yanlış* |
| 2 | Fəaliyyətdə olan vulkana rast gəlinir. | *doğru* |
| 3 | Gecə və gündüzün adi növbələşməsi pozulur. | *yanlış* |
| 4 | İspan dilli ölkədir. | *yanlış* |
| 5 | Bəzi hissələrində Günəş zenitdə olmur. | *doğru* |
| 6 | Zəngin neft ehtiyyatlarına malikdir. | *doğru* |

A) 2, 5, 6 B) 2, 4, 6
C) 1, 3 6 D) 1, 4, 5
E) 2, 3, 6

**14.** Mətndə verilmiş **A** dağı ilə bağlı cədvəldəki ***uyğunsuzluğu*** müəyyən edin.

*Ərazisi iki yarımkürədə yerləşən **A** dağının mütləq hündürlüyü Atlas dağlarının mütləq hündürlüyündən daha çoxdur. Bir neçə ölkə ərazisində yerləşir. **A** dağı mülayim işıqlanma qurşağında yerləşir. Ərazisində konsitusiyalı monarxiya idarəetmə formasına malik olan ölkə yerləşir. Yerləşdiyi qitədə yalnız üç ölkə üç yarımkürədə yerləşir.*

| | | |
|---|---|---|
| 1 | Ərazisindən axan çaylar bir neçə dənizə tökülür. | *doğru* |
| 2 | Ən yüksək zirvəsi monarxiya idarətmə formasına malik olan ölkə ərazisində yerləşir. | *doğru* |
| 3 | 40° şimal enliyi ilə kəsişir. | *doğru* |
| 4 | Ətəklərində yarımsəhra landşaftları qurşaq təşkil edir. | *yanlış* |
| 5 | Arktik hava kütlələrinin təsirinə məruz qalır. | *doğru* |
| 6 | Tektonik mənşəli göllər mövcuddur. | *yanlış* |

A) 1, 3, 6 B) 2, 3, 6
C) 2, 4, 6 D) 1, 2, 3
E) 2, 4, 5

**15.** Eyler-Venn diaqramına əsasən uyğunluğu müəyyən edin.




a. Mənsəbinin yerləşdiyi ölkə iki qitədə yerləşir.
b. Sutoplayıcı hövzəsi iki işıqlanma qurşağında yerləşir.
c. Keçdiyi bütün ölkələr respublika idarəetmə formasına malikdir.
d. Mənsəbində günorta vaxtı Günəş ilboyu cənub tərəfdən görünür.
e. Sutoplayıcı hövzəsi iki yarımkürədə yerləşir.

A) 1-b; 2-c; 3-a, e; 4-b;
B) 1-c; 2-d; 3-a; 4-b;
C) 1-c; 2-d, e; 3-b; 4-a;
D) 1-d; 2-b; 3-c; 4-a, e;
E) 1-c; 2-d, e; 3-a; 4-b;

**16.** Cədvələ əsasən ***uyğunsuzluğu*** müəyyən edin.

| Doğru | Yanlış |
|---|---|
| 1. Əhalinin hal-hazırkı demoqrafik göstəricilərini nəzərə alsaq 2030-cu ildə dünya əhalisində ölənlərin mütləq sayı 2024-cü ildəkindən daha çox olacaq.<br>2. Demoqrafik böhrana yalnız İEÖ-də rast gəlinir.<br>3. Afrikada uşaqlar və yaşlıların xüsusi çəkisinin cəmi orta yaşlılardan daha çoxdur. | 4. Ölkəmizdə iqtisadi inkişafın dördüncü mərhələsində iqtisadi böhran baş vermişdir.<br>5. G-20 ölkələr qrupuna aid olan bütün ölkələr demoqrafik keçidin IV mərhələsindədir.<br>6. Hal-hazırda dünya əhalisinin ən az hissəsi xidmət sahəsində çalışır. |

A) 2, 4, 6
B) 1, 3, 5
C) 2, 3, 4
D) 3, 4, 5
E) 1, 2, 6

**17.**Cədvələ əsasən uyğunluğu müəyyən edin.

| Doğru | Yanlış |
|---|---|
| 1. Üç yarımkürədə yerləşən ölkələrin əksəriyyəti Afrika materikində yerləşir.<br>2.Mərkəzi Asiya regionunda yalnız bir ölkənin qurudan həmsərhəd olduğu heç bir ölkənin dünya okeanına birbaşa çıxışı yoxdur.<br>3. Dünyada ən böyük boksit hasilatı rayonu Avstraliyanın Arnemlend yarımadasındadır. | 4. Hindistan dünyanın ən böyük neft idxalçılarından biridir.<br>5. Almaniya, Avstraliya və Pakistan dünyanın əsas taxıl istehsalçılarından hesab edilir.<br>6. Valdiz, Kure və Dampir limanları federativ ölkələrin ərazisində yerləşir. |

A) 1, 2, 6
B) 2, 4, 5
C) 1, 3, 4
D) 1, 3, 6
E) 4, 5, 6

**18.** Cədvələ əsasən uyğunluğu müəyyən edin.

| I Hindistan | II Almaniya |
|---|---|
| a. Ərazisində Hind və Qanq çaylarının mənsəbi yerləşir.<br>b. Myanma ilə quru sərhədləri mövcuddur.<br>c. Ərazisində subtropik iqlim qurşağına rast gəlinir.<br>d. Milli-etnik əlamətlərinə görə federativ respublikadır.<br>e. Şimal-şərq hissəndə səhralar geniş sahə tutur. | a. Ərazisinin əksər hissəsi mülayim dəniz iqlim tipində yerləşir.<br>b. Həm cavan, həm də qədim dağlara rast gəlinir.<br>c. İslandiya ilə eyni dil qrupuna aiddir.<br>d. Avropa qitəsinin ən uzun çayı olan Dunayın mənbəyi yerləşir.<br>e. Paytaxtı əhalisi ən çox olan şəhəridir. |

A) I-a,b,c,d,e; II-a,b,c,d,e;
B) I-a,b,d; II-a,c,d;
C) I-b,c; II-a,b,c,e;
D) I-b,c,d; II-b,c,e;
E) I-b,c,d; II-a,b,c,e;

**19**. Doğru fikirləri müəyyən edin.

1. Tovuz inzibati rayonunun ərazisi üç fiziki - coğrafi rayonun ərazisində yerləşir.
2. Ağsu və Qarqarçayın qidalanmasında yeraltı sular üstünlük təşkil edir.
3. Bəndovan və Korçay yasaqlıqlarında ceyranlar və su quşları qorunur.
4. Ölkəmizin ərazisində yalnız Kaynozoy erasının vulkanik süxurlarına rast gəlinir.
5. Xəzər dənizinin (göl) səviyyəsi indikindən 300 metr aşağı düşərsə Türkmənistan və Azərbaycan arasında quru yolu mövcud ola bilər.
6. Xəzər dənizi Sarmat dənizinin qalığı hesab edilmir.

A) 1, 3, 4　　B) 1, 2, 4
C) 2, 3, 6　　D) 4, 5, 6
E) 1, 3, 5

**20.** Uyğunluğu müəyyən edin (Bütüb doğru cavabları seçin).

| Dənizlər | Xüsusiyyətləri |
|---|---|
| I – Qara | a. Boğaz vasitəsilə əlaqəsi olan qonşu dənizlərə görə sahəsi daha böyükdür.<br>b. Həm şimal tərəfində, həm də cənub tərəfində cavan dağlar mövcuddur. |
| II – Baltik | a. Şimal dənizi ilə həm kanal, həm də boğaz vasitəsilə əlaqəsi mövcuddur.<br>b. Coğrafi mövqeyinə görə daxili dəniz olduğu üçün suvarmada istifadə edilir. |
| III – Ueddell | a. Amundsen dənizi ilə həmsərhəddir.<br>b. Səthində albedo yüksəkdir. |

A) I-a,b; II-a,b; III-a,b;
B) I-b; II-a,b; III-a;
C) I-a,b; II-a; III-b;
D) I-a,b; II-b; III-b;
E) I-b; II-a; III-a,b;

**21.** Doğru fikirləri müəyyən edin.

1. Şimal Buzlu okeanda isti okean cərəyanlarına rast gəlinmir.
2. Sarı və Karib dənizləri coğrafi mövqeyinə görə kənar dəniz hesab edilir.
3. Benqal körfəzinin orta duzluluğu Karib dənizinin orta duzluluğundan daha aşağıdır.
4. Şimal Buzlu okeanın orta duzluluğu 15‰ -dir.
5. Okean tipli litosfer tavaların toqquşması nəticəsində dərin okean novları yarana bilər.
6 Oxot dənizi və Lena çayının deltasında gecə və gündüzün adi növbələşməsi pozulmur.
A) 3, 4, 5 B) 1, 3, 4 C) 2, 3, 6 D) 1, 2, 4 E) 2, 3, 5

**22.** Doğru fikirləri müəyyən edin.

1. ABŞ-də subtropik iqlim qurşağının yayıldığı ərazilərdə səhralara rast gəlinir.
2. Çayları iki okean hövzəsinə aid olan Perunun sahillərini bir okean yuyur.
3. Kür çayının hər iki sahilində yerləşən bütün inzibati rayonlar okean səviyyəsindən aşağıda yerləşir.
4. Avropanın bütün ölkələrində friksion işsizlik mövcuddur.
5. Albaniya və İrlandiya Şengen zonasına daxildir.
6. Yer kürəsinə bir ildə düşən atmosfer çöküntülərinin miqdarı ilə buxarlanan suyun miqdarı arasında kəskin fərq mövcuddur.

A) 1, 3, 4　　B) 1, 2, 4
C) 2, 4, 6　　D) 1, 3, 5
E) 2, 5, 6

**23.** Cədvələ əsasən ***uyğunlsuzluğu*** müəyyən edin.

| № | Dil ailəsi | Dil qrupu | Xalqlar | doğru və ya yanlış |
|---|---|---|---|---|
| 1 | Hind-Avropa | İran | kürdlər və taciklər | doğru |
| 2 | Ural | Fin-uqor | estonlar və latışlar | doğru |
| 3 | Qafqaz | Nax-Dağıstan | osetinlər və ləzgilər | doğru |
| 4 | Altay | Türk | şorlar və buryatlar | yanlış |
| 5 | Hind-Avropa | Hind-Ari | benqallar və əfqanlar | yanlış |
| 6 | Kartvel | Cənubi Kartvel | gürcülər və avarlar | doğru |

A) 3, 5, 6
B) 1, 3, 4
C) 2, 4, 6
D) 2, 3, 6
E) 2, 4, 5

**24.** Uyğunluğuq gözlənilmişdir.

| | | | |
|---|---|---|---|
| 1 | Qalapaqos adalar | Litosfer tavalarının divergent sərhədində yerləşir. | Aid olduğu ölkə ALADİ təşkilatına üzv deyil. |
| 2 | Sualavesi adası | Üç yarımkürədə yerləşir. | Aid olduğu ölkə federativ inzibati-ərazi quruluşuna malikdir. |
| 3 | Saxalin adası | Tayqa təbi zonası yayılmışdır. | Mülayim iqlim qurşağının musson iqlim tipində yerləşir. |
| 4 | Nyasa gölü | Malavi, Mozambik və Tanzaniya sərhədində yerləşir. | Zambezi çayının sutoplayıcı hövzəsində yerləşir. |
| 5 | Anadır yaylası | Kimmeri qırışıqlığı mərhələsində formalaşıb. | İki okeanın sutoplayıcı hövzəsində yerləşir. |
| 6 | Yaşıl Burun adaları | Tropik işıqlanma qurşağında yerləşir. | Mavritaniyaya məxsusdur. |

A) 1, 3, 5
B) 2, 5, 6
C) 3, 4, 5
D) 2, 4, 6
E) 1, 2, 3

**25.** Uyğunluğu müəyyən edin (bütün doğru fikirləri seçin).

| İqtisadi rayon | Xüsusiyyətlər |
|---|---|
| I – Gəncə-Daşkəsən | a. Yarımsəhra quru çöl, mülayim-isti, soyuq və dağ-tundra iqlim tiplərinə ras gəlinir.<br>b. Əqiq, gips və kükürd-kolçedanı faydalı qazıntı ehtiyatlarına malikdir.<br>c. Ərazisindən Kür, Qanıx və Qabırrı çayları axır. |
| II – Şəki-Zaqatala | a. Beş iqtisadi rayonla və iki xarici ölkə ilə həmsərhəddir.<br>b. Yarımsəhra quru çöl iqlim tipinə rast gəlinmir.<br>c. Məlkəmud dağı yerləşir. |
| III – Lənkəran-Astara | a. İki tektonik zonada yerləşir.<br>b. Ərdəbil şəhəri ilə müqayisədə Təbriz şəhərinə daha yaxındır.<br>c. Ölkəmizdə günəş şüalarının ən böyük bucaq altında düşdüyü məntəqə yerləşir. |

A) I-b,c; II-a,b; III-b,c;
B) I-a,b; II-b,c; III-a,b,c;
C) I-a,b,c; II-c; III-a,c;
D) I-a,c; II-a,c; III-a,c;
E) I-a,b; II-c; II-a,b,c;

**26.** Doğru fikirləri müəyyən edin.

1. Miqyası 1: 22 000 000 olan dünyanın siyasi xəritəsində bütün ölkələr eyni dərəcədə təhrif olunur.
2. Müddətindən və yaranma səbəbindən asılı olmayaraq bütün küləklər şimal yarımkürəsində sağa, cənub yarımkürəsində sola meyil edir.
3. Cənub yarımkürəsində mülayim iqlim qurşağının üç tipinə rast gəlinir.
4. Atmosfer təbəqəsinin bütün qatlarında aerotermik pillə eynidir.
5. Biogenə qədərki mərhələ coğrafi təbəqənin ən uzun zaman davam edən mərhələsidir.
6. NAFTA təşkilatına üzv olan bütün ölkələr federativ inzibati ərazi quruluşuna malikdir.

A) 2, 5, 6
B) 1, 3, 6
C) 2, 4, 5
D) 2, 3, 5
E) 1, 5, 6

**27.** Hansı faydalı qazıntının satışı nəticəsində digər sahələrin tənəzzülə uğraması "Holland sindromu" adını almışdır?

A) Torf
B) Dəmir filizi
C) Mis
D) Təbii qaz
E) Alüminium

**28.** Rusiya Federasiyası və Fransa üçün səciyyəvi olan hansı xüsusiyyətlər İtaliya üçün səciyyəvi deyil?
1. BMT-nin Təhlükəsizlik Şurasının daimi üzvüdür.
2. Alp qırışıqlığı mərhələsində yaranan dağlar mövcuddur.
3. Mülayim dəniz iqlim tipinə rast gəlinir.
4. G-20 ölkələr qrupuna daxildir.
5. Üç yarımkürədə yerləşir.
6. Tayqa təbii zonasına rast gəlinir.

A) 1, 3, 5
B) 2, 4, 6
C) 1, 2, 4
D) 1, 4, 5
E) 3, 5, 6

**29.** Doğru ***olmayan*** fikirləri müəyyən edin.

1. Rusiyanın Dağıstan Respublirasında türkdilli xalqlar yaşayır.
2. Mərakeş həm Şərq, həm də Qərb yarımkürələrində yerləşir.
3. Etanol, biodizel və qranul bioyanacağın maye növünə daxildir.
4. Bütün "köçürmə kapitalizm" ölkələri Böyük Britaniyanın müstəmləkəsi olmuşdur.
5. Albaniya, Yunanıstan və Serbiya BSEC təşkilatına üzv ölkələrdir.
6. Burkino-Faso və Surinam İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv ölkələrdir.

A) 3, 4, 5
B) 1, 4, 6
C) 1, 2, 6
D) 2, 3, 5
E) 2, 3, 4

**30.** Doğru fikirləri müəyyən edin.

1. Ağsu inzibati rayonu ilə həmsərhəd olan heç bir inzibati rayon xarici ölkə ilə həmsərhəd deyil.
2. Filiz faydalı qazıntı ehtiyatlarına yalnız dağlıq ərazilərdə rast gəlinir.
3. İl ərzində fəal orta sutkalıq temperaturlar cəmi 2000°C-dən aşağı olarsa əkinçiliyin inkişafı demək olar ki, mümkün deyil.
4. Bütün materiklər mülayim işıqlanma qurşağında yerləşir.
5. Zəngəzur milli parkı Ordubad, Şahbuz və Babək inzibati rayonları ərazisində yerləşir.
6. 2025-ci ildə COP30 tədbirləri Braziliyada keçiriləcək.

A) 1, 3, 5
B) 1, 4, 6
C) 2, 4, 6
D) 1, 4, 5
E) 2, 3, 6